AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI

# 9 FEVRAL 2020

## AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ SEÇKİLƏR

# SEÇKİ GÜNÜ ÜÇÜN YADDAŞ



**Məntəqə seçki komissiyalarının hörmətli üzvləri,**

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 2020-ci il fevralın 9-da Milli Məclisə seçkilər keçiriləcək. Ölkəmizin tarixi islahatlar dövrünün mühüm ictimai-siyasi hadisəsi olan bu böyük miqyaslı tədbirin Seçki Məcəlləsinin tələblərinə uyğun hazırlanıb azad, ədalətli və şəffaf keçirilməsi üçün Mərkəzi Seçki Komissiyası tərəfindən lazımi tədbirlər görülür. Vətəndaşlarımızın aktiv və passiv seçki hüquqlarının reallaşdırılması ilə bağlı bütün addımlar Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanıb təsdiq edilən Təqvim Planı əsasında ardıcıl, sistemli və keyfiyyətlə atılır. Aşağı seçki komissiyalarının üzvləri də daxil olmaqla, müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi, seçicilərin məlumatlandırılması və onların konstitusion hüquqlarının azad və sərbəst şəkildə reallaşdırılmasına şəraitin yaradılması baxımından nəzərdə tutulan bütün layihələr uğurla gerçəkləşdirilir.

Milli Məclisə seçkilərin yüksək səviyyədə təşkil olunub keçirilməsində məntəqə seçki komissiyaları böyük məsuliyyət daşıyırlar. Ona görə də Sizlər öz vəzifənizin öhdəsindən peşəkarlıqla gəlməklə, vətəndaşlarımızın seçki hüquqlarının qorunması, seçici siyahılarının dəqiqləşdirilməsi və seçicilərin həmin siyahılarla tanış edilməsi, seçki məntəqələrinin səsvermə gününə tam hazır olması, seçicilərin azad və sərbəst səs vermələrinin təşkili, səslərin hesablanması və səsvermənin nəticələri haqqında rəsmi protokolların qüsursuz tərtib edilərək dərhal dairə seçki komissiyalarına çatdırılması kimi mühüm vəzifələri qanunvericiliyin tələblərinə uyğun yerinə yetirməlisiniz.

Əminəm ki, səlahiyyət və vəzifələrinizi həyata keçirmək üçün Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan çoxsaylı təlimat, izah, qayda və digər normativ xarakterli sənədlərlə yanaşı seçki günü prosedurlarının aydın və əhatəli əks olunduğu bu yaddaş kitabçası da sizin üçün dəyərli vəsait olacaq.

Məntəqə seçki komissiyalarının öz vəzifələrinin öhdəsindən layiqincə və peşəkarlıqla gələcəyinə inamımı bildirir, seçkilərin yüksək səviyyədə hazırlanıb, azad və ədalətli keçirilməsində hər birinizə uğurlar arzulayıram.

**Məzahir Pənahov,**
**Azərbaycan Respublikası**
**Mərkəzi Seçki Komissiyasının sədri**

"Seçki günü üçün Yaddaş"
Mərkəzi Seçki Komissiyası tərəfindən işlənib hazırlanmışdır.

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| Bəzi terminlərin izahı | | 2 |
| Birinci fəsil | Rol və vəzifələr | 4 |
| İkinci fəsil | Seçki məntəqəsinin açılması | 9 |
| Üçüncü fəsil | Səsvermə saatlarında tədbirlər | 12 |
| Dördüncü fəsil | Səslərin hesablanması, səsvermənin nəticələri haqqında hesabat | 19 |


## SEÇKİLƏR HAQQINDA

| | |
|---|---|
| Seçki: | Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər |
| Seçki qanunu: | Azərbaycan Respublikasının Seçki Məcəlləsi |
| Seçki günü: | 9 fevral 2020-ci il |
| Səsvermə saatları: | 8:00-dan 19:00-dək |
| Seçki dairələrinin sayı: | 125 |
| Məntəqə seçki komissiyalarının sayı: | 5 442 (bu saya müvəqqəti əsaslarla yaradılan seçki məntəqələri daxil deyil) |
| Seçiləcək Milli Məclis üzvlərinin sayı: | 125 |

***QEYD:*** "Seçki günü üçün Yaddaş" kitabçası Azərbaycan Respublikası Seçki Məcəlləsinin müddəaları və Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi təlimat, izah və qaydalar əsasında hazırlanmışdır. Məntəqə seçki komissiyalarının üzvləri öz vəzifələrini düzgün və qanunun tələblərinə uyğun surətdə yerinə yetirmək üçün göstərilən əsas sənədlərlə dərindən tanış olmalıdırlar.

# BƏZİ TERMİNLƏRİN İZAHI

**1. Mərkəzi Seçki Komissiyası (bundan sonra – MSK)** – bütün ölkə ərazisi üzrə seçkilərin hazırlanmasına və keçirilməsinə məsul olan seçki komissiyası.

**2. Dairə seçki komissiyası (bundan sonra – DSK)** – əhatə etdiyi ərazi üzrə seçkilərin hazırlanmasına və keçirilməsinə məsul olan seçki komissiyası.

**3. Məntəqə seçki komissiyası (bundan sonra – MnSK)** – seçki məntəqəsində seçkilərin hazırlanıb keçirilməsinə məsul olan seçki komissiyası.

**4. Seçki məntəqəsi** – səsvermə günü seçicilərin səs verdiyi yer.

**5. Seçki qutusu** – səsvermə zamanı seçicilər tərəfindən işarələnmiş seçki bülletenlərinin salınması üçün əvvəlcədən müəyyən edilmiş qaydada kilidlənmiş şəffaf qutu.

**6. Daşınmaz seçki qutusu** – səsvermə otağında səsvermə üçün istifadə olunan şəffaf qutu. Daşınmaz seçki qutusu seçki başlanmazdan əvvəl seçki məntəqəsində nəzərdə tutulmuş yerdə qoyulur və səslərin hesablanması prosesi başlananadək yerindən tərpədilmir.

**7. Daşınan seçki qutusu** – səsvermə otağından kənarda səsverməni təşkil etmək üçün istifadə edilən, nisbətən kiçik şəffaf qutu. Hər bir seçki məntəqəsində bir daşınan seçki qutusu olur.

**8. Seçki bülleteni** – üzərində deputatlığa namizədlər haqqında məlumatlar olan xüsusi hazırlanmış sənəd. Seçici deputatlığa namizədlər arasında öz seçimini edib, bülletendə namizədlərin soyadlarından sağdakı kvadratların yalnız birində işarə qoyur. Seçki bülletenlərinin yuxarı sol küncləri nömrələnmiş olur, üz tərəfinin yuxarı sağ künclərinə MnSK-da möhür vurulur. Seçki bülleteni seçiciyə verilərkən nömrə olan yuxarı sol küncü MnSK-nın üzvü tərəfindən kəsilir və saxlanılır.

**9. Müəyyənləşdirilmiş formada olan seçki bülleteni** – MSK-nın müəyyən etdiyi formada hazırlanmış, nömrələnmiş yuxarı sol küncü kəsilmiş, üz tərəfinin yuxarı sağ küncü müvafiq MnSK-nın möhrü ilə möhürlənmiş seçki bülleteni.

**10. Müəyyənləşdirilmiş formada olmayan seçki bülleteni** – MSK-nın müəyyən etdiyi formada hazırlanmamış, yaxud nömrələnmiş yuxarı sol küncü kəsilməmiş və ya üz tərəfinin yuxarı sağ küncü müvafiq MnSK-nın möhrü ilə möhürlənməmiş seçki bülleteni.

**11. Etibarsız səs** – seçki qutusundan çıxmış müəyyənləşdirilmiş formada olan seçki bülletenində namizədlərin soyadlarından sağdakı boş kvadratlarda heç bir işarənin qoyulmaması və ya birdən çox boş kvadratda işarənin qoyulması, yaxud seçicinin iradəsini müəyyənləşdirməyə imkan verməyən işarə.

**12. Etibarlı səs** – seçki qutusundan çıxmış müəyyənləşdirilmiş formada olan seçki bülletenində namizədlərin soyadlarından sağdakı boş kvadratlardan yalnız birində seçicinin iradəsini müəyyənləşdirməyə imkan verən işarə.

**13. Seçici siyahıları** – müvafiq seçki dairəsinin seçki məntəqəsi ərazisində yaşayan və seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşlarının siyahıları.

**14. Əlavə seçici siyahısı** – səsvermə günü seçicilərin adları daxil edilən seçici siyahısı.

**15. Şəxsiyyəti təsdiq edən sənəd** – səs vermək üçün seçicilərin təqdim etməli olduğu şəxsiyyət vəsiqəsi və ya qanunvericiliklə müəyyənləşdirilmiş onu əvəz edən sənədlərdən biri.

**16. Gözə görünməyən mürəkkəb** – seçiciyə seçki bülleteni verərkən onun sol əlinin baş barmağına çilənən gözə görünməyən xüsusi tərkibli mürəkkəb **(xüsusi qabda-balonda).** Belə mürəkkəbdən istifadənin məqsədi seçicinin bir dəfədən artıq səs verməsinin qarşısını almaqdır.

**17. Ultrabənövşəyi lampa** – seçicilərin barmağında gözə görünməyən mürəkkəbin olub-olmamasını yoxlamaq üçün ultrabənövşəyi işığı olan lampa.

**18. Məşvərətçi səs hüquqlu üzv** – birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları hər bir seçki komissiyasının tərkibinə bir məşvərətçi səs hüquqlu üzv təyin edə bilərlər. Birmandatlı seçki dairəsi üzrə qeydə alınmış namizəd müvafiq dairə seçki komissiyasına və seçki dairəsinin ərazisində yerləşən hər bir məntəqə seçki komissiyasına bir məşvərətçi səs hüquqlu üzv təyin edə bilər.

**19. Müşahidəçi** – seçki prosesini müşahidə etmək üçün qanunvericiliklə müəyyən edilmiş qaydada MSK və ya DSK-da qeydiyyatdan keçmiş şəxs. Yerli müşahidəçi aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı, beynəlxalq müşahidəçi isə müvafiq qurumlar tərəfindən dəvət edilmiş xarici ölkə vətəndaşıdır. Qeydiyyatdan keçmiş müşahidəçilərə müvafiq lövhəcik verilir. Müşahidəçilər səsvermə günü seçki məntəqəsində olarkən həmin lövhəcik onların üzərində olmalıdır.

**20. Səlahiyyətli nümayəndə** – namizəd, siyasi partiya və siyasi partiyaların blokları tərəfindən təyin edilən, seçki komissiyaları qarşısında həmin şəxsləri təmsil edən, seçkiqabağı təşviqat da daxil olmaqla namizədin, siyasi partiyanın və siyasi partiyalar bloklarının adından hüquqi əhəmiyyətli hərəkətlər etmək hüququ olan şəxs.

**21. Vəkil edilmiş şəxs** – qeydə alınmış deputatlığa namizədin seçilməsi ilə bağlı təşviqat aparır və digər bu cür fəaliyyətlə məşğul olur. Vəkil edilmiş şəxs müşahidəçi hüququna da malikdir. Birmandatlı seçki dairəsi üzrə qeydə alınmış namizədin 10-a qədər vəkil edilmiş şəxs təyin etmək hüququ vardır.

**22. Qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi** – səsvermə günü seçicilər siyahısına daxil edildiyi seçki məntəqəsində səs vermək imkanı olmayan seçicilərə müvafiq olaraq DSK (səsvermə gününə 45–25 gün qalmış) və ya MnSK (səsvermə gününə 24–3 gün qalmış) tərəfindən verilən və digər seçki məntəqəsində səs vermək imkanı yaradan sənəd. Qeydiyyatdan çıxma vəsiqəsindən yalnız müvafiq seçki dairəsinin hüdudları daxilində istifadə edilə bilər.

**23. MnSK-nın protokolu** – MnSK tərəfindən səsvermənin nəticələri haqqında üç nüsxədə tərtib olunmuş, hər bir nüsxəsi müxtəlif rəngdə olan rəsmi sənəd. Həmin sənəd karbonlaşdırılmış kağızdan buklet formasında hazırlanır.

# Birinci fəsil

# 1. ROL VƏ VƏZİFƏLƏR

### *1.1. SEÇKİ KOMİSSİYALARININ STRUKTURU*

**MSK** – sədr, sədrin müavini və iki katib də daxil olmaqla, 18 (on səkkiz) üzvdən ibarətdir. MSK-nın vəzifələri Seçki Məcəlləsi ilə müəyyən olunmuşdur. MSK özünün təşkili prinsipinə uyğun olaraq DSK-ları yaradır, dairə və məntəqə seçki komissiyalarının fəaliyyətinə rəhbərlik edir, seçkilərin hazırlanmasında və keçirilməsində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarət edir, aşağı seçki komissiyalarına hüquqi, metodiki, texniki-təşkilati kömək göstərir, dövlət büdcəsindən seçkilərə ayrılan maliyyə vəsaitlərini seçki komissiyaları arasında bölüşdürür, bu vəsaitlərin təyinatı üzrə xərclənməsinə nəzarəti təmin edir, DSK-ların və onların vəzifəli şəxslərinin qərar və hərəkətlərindən (hərəkətsizliklərindən) şikayətlərə baxır və onlar barədə əsaslandırılmış qərarlar qəbul edir, qanunvericiliklə nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirir.

**DSK** – sədr və iki katib də daxil olmaqla, 9 (doqquz) üzvdən ibarətdir. DSK MnSK-ların fəaliyyətini əlaqələndirir, onlara lazımi təşkilati dəstək verir, seçki dairəsinin ərazisində vətəndaşların seçki hüquqlarına riayət olunmasına nəzarət edir, deputatlığa namizədləri qeydə alır və onların seçkiqabağı fəaliyyətinə bərabər şərait yaradır, seçkilər haqqında seçicilərə məlumat verir, MnSK-ları otaqlarla, nəqliyyat və rabitə vasitələri ilə təmin edir, seçki məntəqələrində seçkilərin keçirilməsinə təşkilati-texniki köməklik göstərir, MnSK-ların qanunsuz qərarlarını ləğv edir, ərazisində fəaliyyət göstərən seçki məntəqələri üzrə səsvermənin nəticələrini ümumiləşdirərək MSK-ya təqdim edir, qanunla müəyyən olunmuş digər səlahiyyətləri həyata keçirir.

*DSK ilə bağlı məlumatları aşağıda qeyd edin:*

Sədr: ______________________________

Katib: ______________________________

Katib: ______________________________

DSK-nın ünvanı: ______________________________

Telefon nömrəsi: ______________________________

**MnSK** – sədr və iki katib də daxil olmaqla, 6 (altı) üzvdən ibarətdir. MnSK üzvlərinin əsas vəzifələri aşağıdakılardır:

- seçicilər siyahısının təsdiq edilməsi;
- səsvermə otağının zəruri avadanlıq və ləvazimatlarla təmin edilməsi;
- seçicilərin məlumatlandırılması;
- seçki məntəqəsinin əhatə etdiyi ərazidə seçkiqabağı təşviqatın aparılması qaydalarına əməl olunmasının təmin edilməsi;
- seçki günü səsvermənin təşkili, səslərin hesablanması, səsvermənin nəticələrinin müəyyənləşdirilməsi;
- səsvermənin nəticələri haqqında protokolun birinci nüsxəsinin, habelə seçki bülletenlərinin və digər seçki sənədlərinin DSK-ya göndərilməsi.

## *1.2. MnSK ÜZVLƏRİNİN VƏZİFƏLƏRİ*

Səsvermə günü MnSK-nın üzvləri aşağıdakı vəzifələri yerinə yetirirlər:

**MnSK-nın sədri:**
- → MnSK-nın işinə ümumi rəhbərlik edir;
- → MnSK-nın üzvləri arasında iş bölgüsü aparır;
- → seçki məntəqəsini açıq elan edir, seçki komissiyasının üzvlərinə, orada olan seçicilərə və müşahidəçilərə boş seçki qutularını göstərib kilidləyir;
- → seçki məntəqəsində səsvermənin başlanmasını və qurtarmasını elan edir;
- → seçki məntəqəsində səsvermə qaydalarına əməl olunmasını təmin edir;
- → seçki məntəqəsində asayiş pozularsa, onun bərpası üçün polis əməkdaşını dəvət edir;
- → MnSK üzvlərinin fəaliyyətinin qanunun tələblərinə uyğun qurulmasını təmin edir;
- → səslərin hesablanmasını və səsvermənin nəticələri haqqında rəsmi protokolun doldurulmasını təşkil edir;
- → lazımi seçki sənədlərini imzalayır;
- → səsvermənin nəticələri haqqında protokolu və digər seçki sənədlərini DSK-ya çatdırır;
- → Seçki Məcəlləsinə uyğun digər vəzifələri həyata keçirir.

MnSK sədrinin sərəncamları səsvermə otağında olan şəxslər üçün məcburidir.

**MnSK-nın katibi:**
- → MnSK sədrinin göstərişlərini və müəyyənləşdirilmiş vəzifələri icra edir;
- → yerli və beynəlxalq müşahidəçilərin siyahısını tərtib edir;
- → lazımi seçki sənədlərini imzalayır;
- → MnSK-nın sədri seçki məntəqəsində olmadıqda, onun səlahiyyətlərini həyata keçirir;
- → Seçki Məcəlləsinə uyğun digər vəzifələri yerinə yetirir.

**MnSK-nın üzvləri:**
- → sədrin iş bölgüsünə əsasən onlara həvalə olunmuş vəzifələri icra edirlər:
- ▪ MnSK üzvlərindən biri seçki məntəqəsinin girişində dayanıb səs verməyə gələn seçicinin sol əlinin baş barmağının mürəkkəblə işarələnib-işarələnmədiyini və şəxsiyyətini təsdiq edən sənədini yoxlayır, habelə onun səsverməyə aid suallarının olub-olmamasını soruşur;
- ▪ MnSK-nın üzvlərindən biri seçicinin şəxsiyyətini təsdiq edən sənədi yoxlayır, onun həmin seçki məntəqəsində səsvermə hüququna malik olmasına əmin olur, seçicinin şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsini seçici siyahısında qeyd edir, seçicinin sol əlinin baş barmağına gözə görünməyən mürəkkəb çiləyir, seçicilərə seçki bülleteni verir, onun düzgün doldurulması qaydasını onlara izah edir, bülleten korlandıqda seçiciyə yeni bülleten verir (müəyyən olunmuş qaydada);
- ▪ MnSK üzvlərindən biri səsvermə otağında seçki qutusuna (qutularına) yaxın yerdə dayanmalı və əmin olmalıdır ki, heç kəs qutuya toxunmur, seçicilərin hamısı səsvermədən sonra seçki bülletenini seçki qutusuna salır və səsvermə otağını tərk edirlər;
- ▪ lazımi seçki sənədlərini imzalayırlar;
- ▪ MnSK sədrinin göstərişlərini və onlara verilən səlahiyyətləri icra edirlər;
- ▪ Seçki Məcəlləsinə uyğun digər vəzifələri yerinə yetirirlər.

- → MnSK-nın sədri seçki məntəqəsində olmadıqda, onun səlahiyyətlərini MnSK-nın katibi və ya komissiyanın bu vəzifələr həvalə olunmuş digər üzvü həyata keçirir.

**YADDA SAXLA!**

Komissiyanın məşvərətçi səs hüquqlu üzvləri tərəfindən seçiciyə seçki bülleteninin verilməsi, bülletenlərin sayılması, hər hansı bir bülletenin və ya qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin ləğv edilməsi, səsvermənin nəticələri haqqında protokolun doldurulması, MnSK-nın hər hansı bir qərarının imzalanması qadağandır.

### *1.3. MÜŞAHİDƏÇİLƏR VƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN (KİV) NÜMAYƏNDƏLƏRİ*

Seçki komissiyalarının fəaliyyəti şəffaf olmalıdır. Səsvermə günü seçki komissiyalarının fəaliyyətini aşağıdakı şəxslər müşahidə edə bilərlər:

→ qeydə alınmış deputatlığa namizədlər;
→ müvafiq qaydada qeydə alınmış səlahiyyətli nümayəndələr və vəkil edilmiş şəxslər;
→ müvafiq seçki komissiyasının məşvərətçi səs hüquqlu üzvləri;
→ müvafiq lövhəciyi təqdim etməklə yerli və beynəlxalq müşahidəçilər;
→ KİV nümayəndələri.

***QEYD:*** *seçkilərin digər iştirakçıları kimi, müşahidəçilər də Seçki Məcəlləsinin 2.6-cı maddəsində göstərilən aşağıdakı şərtlərə riayət etməlidirlər:*

- *mətbuat azadlığına hörmət bəsləmək;*
- *öz peşə fəaliyyəti ilə məşğul olan KİV nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, siyasi partiyaların (siyasi partiyalar bloklarının) seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;*
- *seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq;*
- *seçkiqabağı təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməmək və korlamamaq;*
- *seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;*
- *seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;*
- *seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;*
- *səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək;*
- *səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;*
- *seçiciləri qeyri-qanuni hərəkətlərlə öz tərəfinə çəkməmək;*
- *seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaq;*
- *seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;*
- *hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materialları yaymamaq;*
- *seçicilərə mükafat təklif etməmək, onları cəza ilə hədələməmək;*
- *dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan Seçki Məcəlləsi ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək;*
- *təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkindirməyə sövq etməmək;*
- *təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;*
- *heç bir vəzifəli şəxsin namizədin dəstəklənməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək.*

***QEYD:*** müşahidəçilər Seçki Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş və seçkilərdə müşahidəçilərin fəaliyyət qaydaları ilə bağlı tələblərlə tanış olmalıdırlar.

**Səsvermə günü müşahidəçilərin aşağıdakı hüquqları vardır:**

→ səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq;
→ seçki komissiyasının iclaslarını müşahidə etmək (səsvermə günündən əvvəl yalnız Seçki Məcəlləsinin 40.13-cü maddəsinə görə xüsusi icazə almış müşahidəçilər bu hüquqdan istifadə edə bilərlər);
→ seçici siyahıları ilə tanış olmaq;

- → seçki məntəqəsi açılmazdan əvvəl gözə görünməyən mürəkkəbin və ultrabənövşəyi lampanın yoxlanılmasında iştirak etmək və digər hərəkətləri – seçki bülletenlərinin sayılmasını, qeydiyyatdan çıxma vəsiqələrinin ləğv edilməsini, seçki qutularının kilidlənməsini və s. müşahidə etmək;
- → səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla MnSK-nın sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək;
- → seçicilərin barmaqlarına mürəkkəbin çilənməsini və seçki bülletenlərinin verilməsini müşahidə etmək;
- → seçicilərin səsvermə kabinəsinə daxil olmalarını və oranı tərk etmələrini, bülletenlərin seçki qutusuna salınmasını müşahidə etmək;
- → daşınan seçki qutusunu müşayiət etmək və səsvermə otağından kənarda seçicilərin səs verməsini müşahidə etmək;
- → səs vermiş seçicilərin sayını hesablamaq, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;
- → seçki qutusundan çıxmış seçki bülletenlərinin sayılmasını müşahidə etmək;
- → komissiyanın qanuni fəaliyyətinə mane olmadan müşahidəni maneəsiz aparmağa imkan verən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədilə baxmaq, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış olmaq;
- → müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək;
- → seçki komissiyalarının sənədlərinin surətlərini qanunauyğun çıxarmaq və ya almaq;
- → seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;
- → seçki sənədlərinin yuxarı seçki komissiyalarına göndərilməsini müşahidə etmək.

**YADDA SAXLA!**

1. Yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar.
2. Müşahidəçilərdən seçki məntəqəsinə gələcəkləri barədə MnSK-nı qabaqcadan xəbərdar etmələri tələb olunmur.

**Müşahidəçilərə aşağıdakı hərəkətlər qadağan edilir:**

- → seçicilərə seçki bülletenləri vermək;
- → seçicinin barmağında mürəkkəbin olub-olmamasını ultrabənövşəyi lampa ilə yoxlamaq və ya seçicinin barmağını mürəkkəblə işarələmək;
- → seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək;
- → köməyə ehtiyacı olan seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteninin alınması qrafasında imza etmək və seçki bülleteninə işarə qoymaq;
- → seçki komissiyasının işinə mane olmaq və ya qanunsuz olaraq seçki komissiyasının fəaliyyətinə müdaxilə etmək;
- → seçicinin seçiminə təsir etmək və ya gizli səsverməni pozmaq;
- → seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə birbaşa seçki bülletenlərini saymaq;
- → seçicilər arasında təşviqat aparmaq;
- → bu və ya digər namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun lehinə, yaxud əleyhinə yönələn və ya bu cür qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;
- → müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;
- → seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla).

KİV nümayəndələri seçki komissiyalarının bütün iclaslarını işıqlandıra, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokollarla və qərarlarla tanış ola, habelə müvafiq seçki komissiyasının qərarının, səsvermənin nəticələrinə dair protokolunun və onlara qoşulan digər sənədlərin surətlərini müəyyən edilmiş qaydada ala bilərlər.

*Müşahidəçilər, müşahidənin aparılması prinsiplərinə (bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə seçki prosesinə təsir göstərilməməsi, müşahidə edilən hərəkətlərə aid olan bütün halların və faktların nəzərə alınması, müşahidənin açıq aparılması, müşahidənin yekunlarının faktlara əsaslanması) hökmən əməl etməli, aşkar etdikləri faktları müəyyən olunmuş qaydada (buna dair müvafiq akt tərtib etməklə) rəsmiləşdirməli, imkan daxilində həmin faktların rəsmiləşdirilməsinə maraqlı şəxslərin diqqətini cəlb etməlidirlər. Seçki prosesində aşkarlığın təmin edilməsi, ehtimal edilən pozuntuların qarşısının alınması və baş vermiş pozuntuların nəticələrinin aradan qaldırılmasının təmin edilməsi məqsədilə həmin halların müvafiq komissiyanın nəzərinə çatdırılmasının məqsədəmüvafiqliyi daim diqqətdə saxlanılmalıdır.*

**YADDA SAXLA!**

Seçicinin öz iradəsini ifadə etməsinə təsir göstərməyə cəhd edən və ya gizli səsvermənin qaydalarını pozan müşahidəçi statusuna malik olan şəxs MnSK-nın qərarı ilə məntəqədən çıxarılır. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 42.3-cü maddəsinin tələblərini pozan beynəlxalq müşahidəçilərin akkreditasiyası MSK tərəfindən, yerli müşahidəçilərin qeydiyyatı isə onları qeydiyyata alan seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə tərəfindən ləğv oluna bilər.

# İkinci fəsil
## 2. SEÇKİ MƏNTƏQƏSİNİN AÇILMASI

**TAPŞIRIQLAR**

Seçki günü səhər saat 7:00-dan gec olmayaraq MnSK-nın üzvləri seçki məntəqəsini səsvermə prosesinə hazırlamaq üçün toplaşırlar. MnSK-nın bütün üzvləri işə hazır olmalıdırlar. Seçki məntəqəsinin açılışına hazırlıq üçün sədr və ya onu əvəz edən komissiya üzvü aşağıdakı tapşırıqları verir:

***1. Seçki materiallarının və avadanlıqlarının hazırlanması***

MnSK-nın üzvləri seçki məntəqəsində işin təşkilinə cavabdehdirlər. Səsvermə kabinələri və müvafiq məlumat lövhələri düzəldilməli, səsvermə qaydasına dair təlimat plakatları divara vurulmalı və səsvermə kabinələrində yerləşdirilməli, MnSK-nın möhrü, gözə görünməyən mürəkkəb balonları, ultrabənövşəyi lampa, batareyalar, səsvermə üçün zəruri olan material və avadanlıqlar hazırlanmalıdır.

Aşağıda göstərilən seçki materiallarının və avadanlıqların yoxlama siyahısı seçki məntəqənizdə lazımi materialların və avadanlığın siyahısını tutmaq üçün sizə kömək məqsədilə hazırlanıb. Çatışmayan avadanlıqlar barədə, yaxud səsvermə günü hər hansı bir material tükənərsə, DSK ilə əlaqə saxlayın.

***SEÇKİ MATERİALLARININ VƏ AVADANLIQLARININ SİYAHISI***

- ❑ Azərbaycan Respublikasının Seçki Məcəlləsi
- ❑ MSK-nın təlimatları
- ❑ Seçicilər siyahısı
- ❑ Əlavə seçicilər siyahısının forması
- ❑ Səsvermə kabinələri
- ❑ Seçki məntəqəsi üçün daşınmaz seçki qutusu (qutuları)
- ❑ Daşınan seçki qutusu
- ❑ Seçki qutularının bağlanması üçün birdəfəlik kilidlər
- ❑ Seçki bülletenləri
- ❑ MnSK-nın karbonlaşdırılmış və nömrələnmiş protokolu
- ❑ Seçicilərin maarifləndirilməsi üçün plakatlar
- ❑ Namizədlər haqqında məlumat (əgər varsa)
- ❑ Məlumat lövhələri
- ❑ Seçki bülleteninin nümunəsi
- ❑ Seçki məntəqəsindən kənarda səs vermək üçün ərizələr
- ❑ Gözə görünməyən mürəkkəblə dolu xüsusi qablar (balonlar)
- ❑ Ultrabənövşəyi lampalar
- ❑ Ultrabənövşəyi lampalar üçün ehtiyat batareyalar
- ❑ MnSK-nın möhrü
- ❑ Möhür üçün mürəkkəbli döşəkcələr
- ❑ Gözdən əlil seçicilər üçün trafaret
- ❑ Yeni nəsil şəxsiyyət vəsiqələri üçün çip oxuyan qurğu
- ❑ Qaralama üçün boş səsvermə protokolunun formaları
- ❑ Müşahidəçilər üçün boş səsvermə protokolunun formaları
- ❑ Qayçı
- ❑ Sap
- ❑ İynə
- ❑ Kalkulyatorlar
- ❑ Qələmlər
- ❑ Xətkeşlər
- ❑ Neft lampası, şam, fənər və s.
- ❑ Generatorlar

### Səsvermə otağını aşağıdakı sxemə uyğun təşkil etməyə çalışın![*]




***QEYD:*** Milli Məclisə seçkilər üzrə seçki bülletenlərinin böyük formatlı nümunəsində heç bir işarə qoyula bilməz.

***2. Səsverməyə dair təlimat və məlumat plakatları***
MnSK-nın sədri səsvermə otağındakı məlumat lövhəsində asılmış seçki bülleteninin doldurulmasına dair izahın səsvermə kabinəsində də yerləşdirilməsini təmin etməlidir. O, səsvermə saatlarında həmin plakatların yerində olmasını müntəzəm surətdə yoxlamalıdır.

***3. Təşviqat materiallarının seçki məntəqəsindən çıxarılması***
MnSK-nın üzvləri səsverməyə 24 saat qalmış seçicilərin maarifləndirilməsi üçün nəzərdə tutulan məlumatlar istisna olmaqla, bütün təşviqat materiallarını səsvermə otağının daxilindən və xaricindən çıxarmalıdırlar.

***4. Akkreditasiyanın yoxlanılması***
MnSK-nın katibi seçki məntəqəsinə gəlmiş bütün müşahidəçilərin akkreditasiyasını, qeydə alınmış namizədlərin və siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin, vəkil edilmiş şəxslərinin və KİV nümayəndələrinin lövhəciklərini yoxlayaraq qeyd etməlidir.

***5. DSK-dan alınmış seçki bülletenlərinin sayılması və qeydiyyatı***
Səsvermə başlanmazdan əvvəl MnSK-nın üzvləri buna hüququ olan şəxslərin müşahidəsi ilə seçki bülletenlərini sayır, onların hər birinin MnSK tərəfindən əvvəlcədən möhürləndiyini yoxlayır (bülletenlər Seçki Məcəlləsinin 99.6-cı maddəsinə uyğun olaraq DSK-dan alındıqdan sonra onların üz tərəfinin yuxarı sağ küncü MnSK-nın möhrü ilə möhürlənir) və bu barədə akt tərtib edirlər. Seçki bülletenlərinin sayı dəqiqləşdirildikdən sonra MnSK-nın sədri onların sayını elan edir. Bu məlumat səsvermənin nəticələri haqqında protokolun qaralama nüsxəsinin 3-cü bəndinə daxil edilir.

[*] Qeyd: veb-kameralar quraşdırılan səsvermə otağının sxemi sonuncu səhifədə göstərilmişdir.

***6. Seçki qutularının hazırlanması***

Səhər saat 7:50-də MnSK-nın sədri seçki məntəqəsini açıq elan edir, boş seçki qutularını seçki komissiyasının üzvlərinə, seçki məntəqəsində olan müşahidəçilərə göstərir, onları bağlayır, fərdi nömrələnmiş və təhlükəsizlik üçün nəzərdə tutulmuş birdəfəlik plastik kilidlərlə bağlayır. Sədr həmin kilidlərin fərdi nömrələrini elan edir. Bu nömrələr MnSK-nın müvafiq aktında qeyd olunur. Səsvermə günü seçki qutuları müşahidəçilərin və MnSK üzvlərinin maneəsiz daim müşahidə edə biləcəyi yerdə yerləşdirilməlidir.

***7. İstifadə edilməmiş qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin ləğv edilməsi***

Əgər seçki məntəqəsində istifadə edilməmiş qeydiyyatdan çıxma (səsvermə) vəsiqələri varsa, seçki günü səsvermə başlananadək MnSK istifadə edilməmiş qeydiyyatdan çıxma vəsiqələrini sayır, yarı kəsməklə ləğv edir, ayrıca zərfə qoyur və bu barədə müvafiq akt tərtib edir.

***8. Mürəkkəb və ultrabənövşəyi lampaların yoxlanılması***

Mürəkkəb və ultrabənövşəyi lampalar seçki məntəqəsi açılmazdan əvvəl müşahidəçilərin müşahidəsi ilə yoxlanılır. Yoxlama səsvermə otağında, MnSK üzvlərinin birinin çeçələ barmağında aparılır və mürəkkəb balonları səsvermə otağında, masanın üstündə, hamının sərbəst görə biləcəyi yerdə saxlanılır.

***9. Səsvermənin nəticələrinə dair məlumatları göstərmək məqsədilə böyüdülmüş protokol nümunələrinin asılması***

Səsvermə otağında səsvermənin nəticələrinə dair məlumatları göstərmək məqsədilə səsvermənin nəticələrinə aid böyüdülmüş protokol nümunələri asılmalıdır.

***10. Vəzifə bölgüsünün aparılması***

Seçki məntəqəsi açılmazdan əvvəl MnSK-nın sədri komissiya üzvləri arasında aparılan vəzifə bölgüsünü təsdiqləyir və onlar öz iş yerlərini tuturlar. MnSK üzvlərinin vəzifə bölgüsü sədrin razılığı ilə komissiya üzvlərinin fikirləri nəzərə alınmaqla dəyişdirilə bilər.

***11. Seçki məntəqəsinin səsvermə üçün açılması***

Səhər 8:00-da MnSK-nın sədri səsvermənin başlanmasını ucadan elan edir.

**Səsvermə günü seçki məntəqəsində kimlər ola bilər:**

→ MnSK-nın üzvləri;
→ MSK və DSK- nın üzvləri;
→ müvafiq seçki komissiyasının məşvərətçi səs hüquqlu üzvləri;
→ qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, müvafiq qaydada qeydə alınmış səlahiyyətli nümayəndələr və vəkil edilmiş şəxslər, akkreditasiyadan keçmiş beynəlxalq və yerli müşahidəçilər;
→ KİV nümayəndələri;
→ seçicilər (o cümlədən, səsvermənin həyata keçirilməsi zamanı yardıma ehtiyacı olan seçicilərə kömək edən şəxslər).

**Zəruri hallarda aşağıdakı şəxslər də seçki məntəqəsində ola bilərlər:**

→ səsvermə hüququnu həyata keçirən zaman və ya MnSK sədrinin dəvəti ilə yalnız ictimai asayişi bərpa etmək üçün xidməti geyim formasında olan polis işçiləri;
→ müvafiq mütəxəssislər (MnSK sədrinin dəvəti ilə yalnız texniki problemləri həll etmək üçün);
→ zəruri yardıma ehtiyac olan hallarda dəvət edilən mütəxəssislər (təcili tibbi yardım, yanğınsöndürmə və s. üzrə mütəxəssislər).

Onlar vəzifələrini icra edən kimi seçki məntəqəsini tərk etməlidirlər.

**YADDA SAXLA!**

Seçki günü ərzində MnSK-nın həlledici səs hüquqlu üzvləri seçki məntəqəsini tərk etməməlidirlər. Həmin gün seçki məntəqəsində SİQARET ÇƏKMƏK VƏ SPİRTLİ İÇKİ İÇMƏK QƏTİ QADAĞANDIR.

# Üçüncü fəsil
# 3. SƏSVERMƏ SAATLARINDA TƏDBİRLƏR

### *3.1. SƏSVERMƏ PROSESİ*

Səsvermə prosesində MnSK-nın üzvləri tərəfindən həyata keçirilən tədbirlər aşağıda göstərilmişdir. Seçici (o cümlədən, qeydiyyatdan çıxma vəsiqəsi ilə səs verən seçici) səs vermək üçün şəxsiyyət vəsiqəsini və ya onu əvəz edən müvafiq sənədi təqdim etməlidir.

**QEYD:** bu prosesdə baş verə biləcək müstəsna hallar 3.3-cü bölmədə izah edilir.

Seçicilər seçki məntəqəsinə daxil olarkən onların sol əlinin baş barmağında (həmin barmağı olmadıqda isə sonrakı barmağında) mürəkkəbin olub-olmamasını ultrabənövşəyi lampa ilə yoxlamağı **UNUTMAYIN!**

***Seçicini qarşılayan və barmağının gözə görünməyən mürəkkəblə işarələnməsini yoxlayan MnSK-nın üzvü:***

- seçki məntəqəsinə gələn hər bir seçicini səsvermə otağının girişində salamlayır;
- seçicilərin şəxsiyyətini təsdiqləyən müvafiq sənədlərini yoxlayır;
- ultrabənövşəyi lampa vasitəsilə seçicinin sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözə görünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlayır və əmin olur ki, seçici səs verməyib. Ultrabənövşəyi işıq seçicinin sol əlinin baş barmağı boyunca salınmalıdır;
- əgər seçicinin barmağı artıq mürəkkəblə işarələnmişsə, MnSK-nın üzvü ondan dərhal məntəqəni tərk etməsini tələb edir və seçicinin bu tələbi yerinə yetirməsinə əmin olur;
- hər bir seçicidən səsvermə prosesinə aid sualının olub-olmamasını soruşur;
- barmağında mürəkkəb olmayan seçiciyə məlumat lövhəsinə, sonra isə bülleten verən və seçicinin barmağını mürəkkəblə işarələyən MnSK-nın üzvünə yaxınlaşmağı tövsiyə edir.

**QEYD:** siz ultrabənövşəyi lampanın işlək vəziyyətdə saxlanılmasına və məntəqədə ehtiyat batareyaların olmasına əmin olmalısınız.

**Səs vermək üçün seçici aşağıdakı sənədlərdən birini təqdim etməlidir:**

1. Azərbaycan Respublikasının vətəndaşları üçün:
   **– şəxsiyyət vəsiqəsi.**

2. Qaçqın və məcburi köçkün vətəndaşlar üçün:
   **– bu siyahının 1-ci bəndində göstərilən şəxsiyyətlərini təsdiq edən sənəd yoxdursa, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən müəyyənləşdirilmiş formalı vəsiqə.**

3. Həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular üçün:
   **– zabitin şəxsi vəsiqəsi;**
   **– hərbi bilet.**

4. Barələrində həbs növündə qətimkan tədbiri seçilərək istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər üçün:
   **– Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd.**

5. Azadlıqdan məhrumetmə yerlərində və xüsusi müəssisələrdə cəza çəkən məhkumlar üçün:
   **– Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş məhkumun şəxsiyyətini təsdiq edən sənəd.**

6. Azərbaycan Respublikası ərazisində 5 ildən az olmayaraq daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün:

- **icazə vəsiqəsi (Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş onların ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəd)**
- **vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi.**

> **YADDA SAXLA!**
> Seçki prosesində yuxarıda göstərilən sənədlərdən başqa, digər sənədlərdən istifadə olunması yolverilməzdir.

***Seçicinin barmağını gözə görünməyən mürəkkəblə işarələyən və bülleten verən MnSK-nın üzvü:***

- ↪ seçicinin adını və soyadını soruşur və şəxsiyyətini təsdiq edən müvafiq sənədi təqdim etməyi ondan xahiş edir;
- ↪ seçicinin adını seçicilər siyahısında tapır;
- ↪ təqdim olunmuş şəxsiyyəti təsdiq edən sənədin seriyası və nömrəsini seçicilər siyahısında seçicinin adı qarşısında qeyd edir;
- ↪ seçiciyə sol əlinin baş barmağının gözə görünməyən mürəkkəblə işarələnməsini təklif edir;

> **YADDA SAXLA!**
> Barmağının mürəkkəblə işarələnməsinə etiraz edən seçiciyə seçki bülleteninin verilməyəcəyi izah edilir. Əgər seçici fikrini dəyişməzsə, ondan seçki məntəqəsini tərk etməsi xahiş olunur. Bu barədə seçici siyahısında “işarələnmədən imtina etdi” qeydi aparılır.

> Seçicinin barmağı mürəkkəblə işarələməzdən **ƏVVƏL** seçicinin adının seçici siyahısında olduğu **YƏQİN EDİLMƏLİDİR!**

- ↪ seçici razılaşarsa, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsini gözə görünməyən mürəkkəblə işarələyir və işarələndiyini yəqin edir. O, seçicini təlimatlandırır ki, mürəkkəb quruyanadək barmağına toxunmasın;

***QEYD:*** əgər seçicinin sol əlinin baş barmağı yoxdursa, MnSK-nın üzvü onun növbəti yaxın barmağını mürəkkəblə işarələyir. Əgər seçicinin sol əli yoxdursa, MnSK-nın üzvü seçicinin sağ əlinin baş barmağını mürəkkəblə işarələyir (seçicinin sağ əlinin baş barmağı yoxdursa, barmağın işarələnməsi yuxarıda göstərilmiş digər əldəki qaydaya müvafiq olaraq həyata keçirilir);

> Seçicinin sol əlinin baş barmağının gözə görünməyən mürəkkəblə işarələnməsi **ZƏRURİDİR!**

- ↪ seçiciyə möhürlənmiş seçki bülleteni verərkən bülletenin nömrələnmiş yuxarı sol küncünü kəsir və özündə saxlayır;
- ↪ adı seçicilər siyahısında olan seçicidən siyahıda adının qarşısındakı “Seçicinin seçki bülleteni alması haqqında imza” qrafasında imza etməsini xahiş edir;
- ↪ seçicini seçki bülletenində namizədlərin soyadlarından sağdakı kvadratlardan yalnız birində işarə qoyması barədə təlimatlandırır;
- ↪ seçicini boş səsvermə kabinəsinə keçib seçki bülletenində işarə qoyması, bülleteni qatlaması və seçki qutusuna salaraq seçki məntəqəsini tərk etməsi barədə təlimatlandırır.

| YADDA SAXLA! |
|---|
| Hər seçici seçicilər siyahısında imza edərək yalnız **BİR** seçki bülleteni alır və onda işarə qoyur. Seçicilər seçki bülleteninə işarəni səsvermə kabinəsində gizli şəkildə qoymalıdırlar. Seçki məntəqəsindəki seçici axınına diqqət yetirilməlidir. Səsvermə kabinəsində seçici səs verərkən digər seçicinin kabinəyə daxil olmasına imkan **VERİLMƏMƏLİDİR!** |

| XƏBƏRDARLIQ |
|---|
| Səsvermənin gizliliyini pozmaq, başqasının əvəzinə səs vermək və bir şəxs tərəfindən seçki qutusuna birdən artıq seçki bülleteni salmaq Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Bu əmələ görə həmin şəxs pul cəriməsi, yaxud islah işləri ilə cəzalandırıla bilər. Buna yol **VERİLMƏMƏLİDİR!** |

***MnSK-nın seçki qutusunun mühafizəsi üçün cavabdeh üzvü:***

- seçicinin seçki bülletenini qatlayaraq seçki qutusuna salmasına əmin olur;
- səs vermiş seçicidən seçki məntəqəsini tərk etməsini xahiş edir.

| YADDA SAXLA! |
|---|
| Seçiciyə təsir göstərməyə cəhd edən, gizli səsvermənin qaydalarını pozan şəxs MnSK-nın qərarı ilə məntəqədən çıxarılır. |

### *3.2. SEÇİCİLƏRİN SƏSVERMƏDƏ İŞTİRAKININ MONİTORİNQİ*

DSK sizdən seçki günü ərzində seçicilərin səsvermədə iştirakı barədə hesabat tələb edəcək. Buna görə, siz seçki bülleteni almış seçicilərin sayını təyin olunmuş vaxt intervalında müəyyən etməlisiniz.

Həmin məlumatın cədvəli aşağıda təqdim olunur. Göstərilən müvafiq saatadək gələn seçicilərin səsvermədə iştirakını müəyyən edin, rəqəmlərdən soldakı kvadratı işarələyin və səsvermədə iştirak etmiş seçicilərin sayını qeyd edin.

**SEÇİCİLƏRİN SƏSVERMƏDƏ İŞTİRAKI BARƏDƏ İLKİN MƏLUMAT**

- ❑ 10:00 ____________________
- ❑ 12:00 ____________________
- ❑ 15:00 ____________________
- ❑ 17:00 ____________________
- ❑ 19:00 ____________________

### *3.3. SƏSVERMƏ PROSESİNDƏ MÜSTƏSNA HALLAR*

***SEÇİCİ SEÇKİ BÜLLETENİNİ KORLAYIBSA…***

Əgər seçici seçki bülletenini korlayıbsa, ona yeni bülleten verilməsini xahiş edə bilər. Seçici korlanmış seçki bülletenini ona bülleten vermiş MnSK-nın üzvünə qaytarmalıdır.

**Seçki bülleteninin verilməsinə məsul olan MnSK-nın üzvü:**

- korlanmış seçki bülletenini seçicidən alır;
- korlanmış seçki bülletenini yarı kəsməklə ləğv edir və onu korlanmış seçki bülletenləri üçün nəzərdə tutulmuş ayrıca zərfə qoyur;
- seçiciyə yeni seçki bülleteni verir;

- seçicinin seçki bülletenini korlaması və ona yenisinin verilməsi barədə seçicilər siyahısında seçicinin soyadından sağda bu barədə müvafiq qeyd edir;
- seçicini dərhal boş səsvermə kabinəsinə keçmək, yenidən səs vermək və seçki məntəqəsini tərk etmək barədə təlimatlandırır;
- hər bir korlanmış seçki bülleteni barədə ayrıca akt tərtib edir.

***SEÇİCİNİN SEÇKİ BÜLLETENİNİ ALMAQDA VƏ YA DOLDURMAQDA KÖMƏYƏ EHTİYACI VARSA...***

Seçki bülleteni almaq və ya doldurmaq üçün köməyə ehtiyacı olan seçici seçki komissiyalarının həlledici və məşvərətçi səs hüquqlu üzvləri, müşahidəçilər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri, vəkil edilmiş şəxslər istisna olmaqla, başqa şəxsə müraciət edə bilər. Seçiciyə seçki bülletenini almaqda və ya doldurmaqda kömək edən şəxs öz inisialını və soyadını göstərməklə, seçici siyahısının "Seçicinin seçki bülleteni alması haqqında imza" qrafasında imza etməlidir.
Bülleteni doldurmaq üçün seçici dərhal boş səsvermə kabinəsinə daxil olur. Ehtiyac olarsa, kömək göstərən şəxs seçici ilə birlikdə səsvermə kabinəsinə daxil ola bilər. Səsvermə kabinəsindən çıxdıqdan və bülleteni seçki qutusuna saldıqdan sonra seçicidən və ona kömək edən şəxsdən seçki məntəqəsini tərk etmələri tələb olunur.

### *Gözdən əlillərin səs verməsi*

*Gözdən əlillər onlar üçün nəzərdə tutulmuş xüsusi trafaret forması ilə səs verirlər. Belə ki, MnSK-nın seçiciyə seçki bülleteni verən üzvü həmin trafaret formasını seçki bülleteninin üzərinə qoyaraq seçiciyə verir və onun səs vermək üçün səsvermə kabinəsinə getməsinə şərait yaradır. Seçici üzərində Brayl əlifbası (gözdən əlillər üçün xüsusi əlifba) ilə yazılmış trafaret formasını barmaqları vasitəsilə oxuyaraq bülletendə işarə qoyur və onu qatlayaraq seçki qutusuna saldıqdan sonra trafaret formasını komissiyanın üzvünə qaytarır.*

**YADDA SAXLA!**

Müşahidəçilərin, qeydə alınmış deputatlığa namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin, seçki komissiyalarının həlledici və məşvərətçi səs hüquqlu üzvlərinin seçki bülletenini almaqda və ya onu doldurmaqda seçiciyə kömək etməsinə icazə **VERİLMİR.**

***ƏGƏR SEÇİCİ QEYDİYYATDAN ÇIXMA (SƏSVERMƏ) VƏSİQƏSİ İLƏ SƏS VERMƏK İSTƏYİRSƏ...***

**YADDA SAXLA!**

Milli Məclisə seçkilər zamanı qeydiyyatdan çıxma vəsiqəsindən yalnız müvafiq seçki dairəsinin ərazisində istifadə edilir.

**Seçicinin barmağını mürəkkəblə işarələyən və bülleten verən MnSK-nın üzvü:**
- seçicinin adını soruşur, müəyyən olunmuş şəxsiyyətini təsdiqləyən sənədi təqdim etməyi ondan xahiş edir;
- seçicinin şəxsiyyətini təsdiqləyən sənədlə uyğunluğunu yəqin etmək üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsini yoxlayır;
- səs verərkən seçicidən qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsində yaşayış yerinin ünvanını yazmağı və imza etməyi xahiş edir;
- qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsini alır və seçicilər siyahısına tikməklə əlavə edir;
- bu yaddaşın 3.1-ci bölməsində göstərilmiş qaydada seçicinin səs verməsini təmin edir.

***SEÇİCİNİN ŞƏXSİYYƏTİNİ TƏSDİQLƏYƏN MÜVAFİQ SƏNƏDİ YOXDURSA...***

Seçici tələb olunan şəxsiyyətini təsdiqləyən sənədi özü ilə gətirməyibsə, MnSK-nın seçicini qarşılayan və barmağının mürəkkəblə işarələnməsini yoxlayan üzvü həmin seçiciyə bu halda səs verməsinin qeyri-mümkünlüyünü və tələb olunan şəxsiyyəti təsdiqləyən sənədlə gəlməsini izah etməlidir.

**YADDA SAXLA!**

MSK-nın təsdiq etdiyi səsvermə üçün nəzərdə tutulan sənədlərdən başqa, digər sənədlərlə səs vermək **OLMAZ**.
Seçiciyə seçki bülleteni MSK-nın təsdiq etdiyi səsvermə üçün nəzərdə tutulan şəxsiyyəti təsdiqləyən müvafiq sənəd təqdim edildikdə verilməlidir.

**SEÇİCİNİN ADI SEÇİCİLƏR SİYAHISINDA YOXDURSA ...**

Seçici seçki məntəqəsinə daxil olub seçicilər siyahısı ilə tanış olarkən öz adını siyahıda tapmadıqda, seçicinin səsvermə hüququnu yoxlayan MnSK-nın üzvü həmin seçicinin adının siyahıya salınması üçün MnSK-nın sədrinə müraciət etməsini məsləhət görür. Seçicinin adının əlavə seçici siyahısına salınması və ya salınmaması yalnız MnSK-nın qərarı əsasında olmalıdır (seçicinin adının əlavə seçici siyahısına daxil edilməsinə əsas kimi sizin məntəqənin ərazisində müvafiq polis orqanları tərəfindən verilmiş daimi və ya müvəqqəti qeydiyyatda olmasını təsdiqləyən və s. bu kimi sənədlər əsas götürülə bilər).

### *3.4. DAŞINAN SEÇKİ QUTUSU İLƏ SƏSVERMƏ PROSESİ*

Seçki günü səhhətinə görə və ya digər üzrlü səbəblərdən seçki məntəqəsinə gələ bilməyən vətəndaşların daşınan seçki qutusu ilə səsvermə otağından kənarda səs vermək hüququ vardır. Səsvermə otağından kənarda səs vermək istəyən şəxslər seçki gününə ən azı 24 saat qalmış bu barədə MnSK-ya yazılı və ya şifahi müraciət etməlidirlər. MnSK üzrlü səbəbdən səsvermə otağına gələ bilməyən seçiciyə səsvermədə iştirak etmək imkanı yaratmalıdır.

DSK səsvermə otağından kənarda səs vermək üçün MnSK-ya edilmiş müraciətlərin sayını seçki gününə ən azı 12 saat qalmışadək təsdiq edir.

**YADDA SAXLA!**

Daşınan seçki qutusundan yalnız seçki günü istifadə oluna bilər.

* * *

Müşahidəçilərin daşınan seçki qutusunu müşayiət etmək hüququ var.

* * *

Daşınan seçki qutusunun yarığı sonuncu seçici səs verib qurtardıqdan sonra bağlanmalıdır.

Seçki günü **MnSK-nın sədri:**

- daşınan seçki qutusu ilə səs vermək istəyən şəxslərin müraciətlərini nəzərdən keçirməli, bu şəxslərin adları və ünvanları göstərilən siyahını hazırlamalıdır;
- səsvermə otağından kənarda səsverməni təşkil etmək üçün MnSK-nın müxtəlif siyasi partiyaları və ya maraqları təmsil edən iki üzvünü müəyyən etməlidir;
- səsvermə otağından kənarda səsvermənin keçirilməsinin vaxtını müəyyən etməlidir;
- MnSK-nın bu iş üçün məsul üzvlərinin seçki məntəqəsindən aldıqları bülletenlərin sayını qeyd etməlidir;
- səsvermə otağından kənarda səsverməni təşkil etmək məqsədilə MnSK üzvlərinin seçki məntəqəsini tərk etmələri barədə müşahidəçilərə məlumat verməli və onları bu səsvermə prosesinin təşkilini bütünlüklə müşahidə etmək üçün MnSK-nın üzvləri ilə birlikdə göstərilən ünvana getməyə dəvət etməlidir.

**MnSK-nın daşınan seçki qutusu ilə səsverməni təşkil etməyə cavabdeh olan üzvləri:**

- qəbul olunan ərizələrin sayına uyğun möhürlənmiş seçki bülleteni, o cümlədən korlanma ehtimalına görə əlavə üç seçki bülleteni alırlar;
- seçki sənədlərinin mühafizəsini təmin edib, seçicinin yaşadığı ünvana gedirlər;
- səsvermə otağından kənarda səs vermək üçün yazılmış ərizələrdə seçicilərin adlarını dəqiqləşdirirlər;

**YADDA SAXLA!**

Əgər seçici səsvermə otağından kənarda səs vermək üçün əvvəlcədən ərizə yazmayıbsa və yalnız şifahi müraciət edibsə, ərizəni MnSK üzvlərinin yanında yazmalıdır. Ərizədə seçicinin soyadı, adı, atasının adı, doğulduğu il (2020-ci ildə 18 yaşı tamam olanlar üçün əlavə olaraq doğulduğu ay və gün), şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi, yaşayış yerinin ünvanı və seçki məntəqəsinin nömrəsi göstərilməlidir. Ərizənin arxa tərəfində seçici möhürlənmiş seçki bülleteni almasını öz imzası ilə təsdiqləyir.

- seçicinin şəxsiyyətini təsdiq edən müvafiq sənədini yoxlamalıdırlar;
- şəxsiyyəti təsdiqləyən sənəddəki müvafiq məlumatları seçicinin səsvermə otağından kənarda səs vermək üçün yazdığı ərizəsində qeyd etməlidirlər;
- möhürlənmiş seçki bülleteninin yuxarı sol küncünü kəsməli və həmin küncləri bunun üçün nəzərdə tutulmuş zərfdə saxlamalıdırlar;

**YADDA SAXLA!**

Daşınan seçki qutusu vasitəsilə səs verən seçicilərin barmaqları mürəkkəblə işarələnmir.

- seçiciyə möhürlənmiş seçki bülleteni verməli və seçicini namizədlərin soyadlarından sağdakı kvadratların yalnız birində işarə qoyması barədə təlimatlandırmalıdırlar;
- seçicidən seçki bülleteni alması barədə səsvermə otağından kənarda səs vermək üçün yazdığı ərizənin arxa tərəfində imza etməsini xahiş etməlidirlər;
- seçicinin gizli səs verməsini təmin etməlidirlər;

***QEYD:*** *Əgər seçici seçki bülletenini doldurarkən səhvə yol vermişdirsə, ona yeni bülleten verilə bilər. Korlanmış seçki bülletenləri ayrıca zərfə qoyulmalıdır (korlanmış seçki bülletenlərinə dair bu kitabçanın 3.3-cü bölməsindəki müddəalara bax).*

**QEYD:** Seçici seçki bülletenini almaq və ya doldurmaq üçün zəruri hallarda kömək istəyə bilər. MnSK üzvlərinin və müşahidəçilərin seçki bülletenini almaqda və ya doldurmaqda seçiciyə kömək etməsinə icazə verilmir. Seçiciyə kömək edən şəxsin adı seçicinin səsvermə otağından kənarda səs vermək üçün yazdığı ərizədə qeyd edilməlidir.

- seçki bülletenini qatlayaraq daşınan seçki qutusuna salmaq üçün seçicini təlimatlandırmalıdırlar;
- bütün seçki materiallarını etibarlı surətdə saxlamalı və müşahidəçilərlə birlikdə səsvermə otağından kənarda səsvermə təşkil olunacaq digər ünvana getməlidirlər;
- səsvermə otağından kənarda səs vermək üçün müraciət etmiş bütün seçicilər səs verdikdən sonra daşınan seçki qutusunu, istifadə olunmuş bülletenlərin kəsilmiş künclərini, istifadə olunmamış və korlanmış seçki bülletenlərini (əgər varsa), eləcə də yazılı ərizələri dərhal seçki məntəqəsinə qaytarmalıdırlar;
- seçicilərin ərizələri ilə əlaqədar istifadə olunan, geri qaytarılan, korlanan (əgər varsa) seçki bülletenlərinin sayı barədə ayrıca akt tərtib edilməlidir;
- daşınan seçki qutusunun yarığını sonuncu seçici səs verib qurtardıqdan sonra bağlamalıdırlar. Bu qutu kilidlənməli və səslərin hesablanmasınadək **AÇILMAMALIDIR**.

MnSK-nın səsvermə otağından kənarda səsvermənin təşkilinə cavabdeh olan üzvləri seçki məntəqəsinə gələn kimi MnSK-nın sədri və ya onu əvəz edən şəxs:

- istifadə olunmamış seçki bülletenlərinin sayını qeyd etməlidir;
- korlanmış seçki bülletenlərinin sayını qeyd etməlidir;
- seçici siyahısında səsvermə otağından kənarda səs vermiş seçicilərin adının qarşısında xüsusi qeydlər aparmalıdır;
- səsvermə otağından kənarda təşkil olunmuş səsvermə haqqında məlumatları ayrıca sənəddə qeyd etməlidir.

### *3.5. MÜHAFİZƏ*

Seçki günü ictimai asayişin bərpası üçün formada olan polis əməkdaşları seçki məntəqəsinə MnSK sədrinin dəvəti ilə daxil ola bilərlər. İctimai asayiş bərpa edildikdən sonra polis işçiləri seçki məntəqəsini tərk etməli və azı 100 metr aralıda olmalıdırlar. Onların seçici qismində seçki məntəqəsinə bir dəfə daxil olmaq səlahiyyəti vardır.

Polis əməkdaşı asayişi bərpa etmək məqsədilə səsvermə otağında olduğu müddətdə səsvermə dayandırılır. Əgər 6 (altı) saat müddətində asayiş bərpa olunmazsa, DSK-nın qərarı ilə seçki məntəqəsi bağlanır və həmin məntəqə üzrə səsvermənin nəticələri etibarsız sayılır.

### *3.6. SƏSVERMƏ ÜÇÜN SEÇİCİLƏRİN SEÇKİ MƏNTƏQƏSİNƏ DAXİL OLMASININ DAYANDIRILMASI*

Saat 19:00-da MnSK-nın sədri səsvermənin başa çatdığını ucadan elan edir və deyir: "Yalnız səsvermə otağında olan və seçki bülleteni almış seçicilər səs verə bilərlər". Bu zaman səsvermə otağında növbəyə dayanmış seçicilərin səs verməsi və səs verdikdən sonra seçki məntəqəsini tərk etməsi təmin edilməlidir.

**YADDA SAXLA!**

Səsvermə başa çatdıqda seçki məntəqəsində MnSK-nın həlledici və məşvərətçi səs hüquqlu üzvləri, akkreditasiyadan keçmiş müşahidəçilər, qeydə alınmış deputatlığa namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, siyasi partiyaların və siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri, vəkil edilmiş şəxsləri və mətbuat nümayəndələri ola bilərlər. Onların üzərində müvafiq lövhəciklər olmalıdır.

# Dördüncü fəsil

# 4. SƏSLƏRİN HESABLANMASI. SƏSVERMƏNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT

## *4.1. SƏSLƏRİN HESABLANMASINA HAZIRLIQ*

Axırıncı seçici səs verdikdən sonra MnSK-nın sədri seçki bülletenlərinin sayılması prosesində iştirak etmək hüququ olan şəxslərdən başqa, hamının seçki məntəqəsini tərk etməsini təmin etməlidir. Bu zaman otaq bağlanmalıdır.

**BUNLAR VACİBDİR**

Səslərin hesablanması prosesi bütövlükdə səsvermə otağında fasiləsiz olaraq həyata keçirilməlidir. Daşınan və daşınmaz seçki qutuları, seçicilər siyahısı və digər seçki materialları səslərin hesablanması başa çatanadək həmin otaqda qalmalıdır.

Səslərin hesablanması zamanı seçki məntəqəsində **YALNIZ** aşağıdakı şəxslər ola bilər:

- → MnSK-nın həlledici səs hüquqlu üzvləri;
- → seçki komissiyasının məşvərətçi səs hüquqlu üzvləri;
- → yuxarı seçki komissiyalarının həlledici və məşvərətçi səs hüquqlu üzvləri;
- → qeydə alınmış deputatlığa namizədlər;
- → müvafiq qaydada qeydə alınmış səlahiyyətli nümayəndələr və vəkil edilmiş şəxslər;
- → yerli və beynəlxalq müşahidəçilər;
- → qeydiyyatdan keçmiş KİV nümayəndələri.

***QEYD***: Yalnız MnSK-nın həlledici səs hüquqlu üzvləri səslərin hesablanmasını birbaşa həyata keçirirlər.

**Diqqət yetir!**
Seçki günü səsvermə otağında olan və seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə edən şəxslərin qeydiyyatı **MnSK-nın katibi** tərəfindən aparılır.
Səslərin hesablanması üçün münasib şəraitin yaradılmasından ötrü lazım olmayan materiallar və avadanlıqlar bir tərəfə yığılmalıdır. Səslərin hesablanması üçün zəruri olan bütün sənəd formalarının əl altında olması təmin edilir. Müvafiq materialların yaddaş-siyahısı aşağıda göstərilmişdir:

**SƏSLƏRİN HESABLANMASINA HAZIRLIQ ÜÇÜN LAZIM OLAN SƏNƏD VƏ AVADANLIĞA DAİR YADDAŞ–SİYAHI**

- ❑ Seçicilər siyahısı
- ❑ Əlavə seçicilər siyahısı
- ❑ İstifadə edilməmiş seçki bülletenlərinin sayı haqqında məlumat
- ❑ Korlanmış seçki bülletenlərinin qoyulduğu zərflər və onların sayı haqqında akt
- ❑ Səsvermənin nəticələri haqqında protokolun qaralama üçün nəzərdə tutulmuş nüsxəsi və doldurulmamış əsli
- ❑ Seçki məntəqəsində olan şəxslərə verilməsi nəzərdə tutulmuş boş protokol nüsxələri
- ❑ MSK-nın müvafiq təlimatları
- ❑ Neft lampaları, şamlar, fənərlər və s.
- ❑ Kalkulyator
- ❑ Seçki sənədlərinin qablaşdırılması üçün zərflər və kisə
- ❑ Qələmlər, karandaşlar, kağız və s.

**MnSK-nın sədri** seçki bülletenlərinin sayılması və səsvermənin nəticələri haqqında protokolun doldurulması qaydalarını MnSK üzvlərinə bir daha izah etməlidir.

**MnSK-nın sədri** tətbiq olunacaq ümumi prosedurlar barədə izahat verməlidir:
- → səsvermənin nəticələri haqqında protokol tərtib edilərkən onun hər bir bəndi otaqda ucadan elan edilir;
- → rəsmi yekun protokolu tərtib edilməzdən əvvəl məlumatlar protokolun qaralama nüsxəsində sözlə və rəqəmlə qeyd olunur;
- → müşahidəçilər protokolun MnSK tərəfindən yoxlanılmış və onun möhrü ilə təsdiqlənmiş nüsxəsinin surətini və onlara qoşulan qanunvericiliklə qadağan edilməyən sənədlərin surətlərinin bir nüsxəsini haqqı ödənilmədən çıxara və ya ala bilər, əlavə nüsxələri isə MSK tərəfindən müəyyən edilən haqq ödənilməklə ala bilərlər.

MnSK-nın sədri səslərin hesablanması prosesinə aid olan hər bir şeyi nəzərdən keçirir.

***DİQQƏT:*** Səsvermə günü aşağıdakı hallar MnSK tərəfindən mütləq nəzərə alınmalıdır:

**Hesablama prosesinin mərhələləri:**
**Birinci mərhələ** – seçki qutuları açılmazdan əvvəl MnSK-nın üzvləri aşağıdakıları müəyyən edir:
- → seçki məntəqəsi üzrə seçici siyahılarında olan seçicilərin ümumi sayını;
- → seçici siyahısında olan seçicilərin sayını;
- → əlavə seçici siyahısında olan seçicilərin sayını;
- → qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi almış seçicilərin sayını;
- → DSK tərəfindən MnSK-ya verilmiş seçki bülletenlərinin sayını;
- → seçki bülleteni alan secicilərin sayını;
- → səsvermə otağından kənarda səs vermiş seçicilərin ərizələrinin sayını;
- → səsvermə otağından kənarda səs verən seçicilərə verilmiş seçki bülletenlərinin sayını;
- → səsvermə otağında qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi ilə səs vermiş seçicilərin sayını;
- → istifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayını;
- → korlanmış seçki bülletenlərinin sayını.

**YADDA SAXLA!**

Seçki qutuları açılmazdan əvvəl istifadə edilməmiş seçki bülletenləri səsvermə otağındakı müşahidəçilərin müşahidəsi ilə MnSK üzvləri tərəfindən sayılır və ləğv edilir. Həmin seçki bülletenlərinin sayı elan edilir və səsvermənin yekun protokolunda qeyd olunur.

**YADDA SAXLA!**

Seçki qutuları yalnız bu mərhələ başa çatdıqdan sonra açılmalıdır.

**İkinci mərhələ** – MnSK-nın sədri seçki qutuları açıldıqdan sonra səslərin hesablanması prosesinin mərhələlərini yenidən izah edir. MnSK aşağıdakı hesablamaları aparır və nəticələri protokolun qaralamasında qeyd edir. Bu mərhələdə aşağıdakı məlumatların müəyyən olunması vacibdir:
- → daşınan və daşınmaz seçki qutularındakı seçki bülletenlərinin sayı;
- → daşınan və daşınmaz seçki qutularındakı müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı;
- → etibarsız səslərin sayı;
- → etibarlı səslərin sayı;
- → hər bir namizədə verilmiş səslərin sayı.

***QEYD:*** Daşınan və daşınmaz seçki qutularındakı müəyyənləşdirilmiş formada olmayan seçki bülletenlərinin sayı müəyyən edilir, buna dair akt tərtib olunur və həmin akt protokola əlavə edilir.

**YADDA SAXLA!**

Səslərin hesablanması ümumi hesablama prosesinə yekun vurulanadək fasiləsiz aparılmalıdır.

**Protokol tərtib olunarkən:**
- → Əvvəl səsvermənin nəticələri haqqında protokolun ilkin **QARALAMASINI** tərtib edin. Siz qaralama protokolundakı səhvləri düzəldə bilərsiniz.
- → Aşağıda göstərilmiş 1 – 6-cı hərəkətləri icra etməmiş seçki qutularını **AÇMAYIN**.

- → **RƏSMİ** protokol diyircəkli qələmlə tərtib edilməlidir, bu protokola **HEÇ BİR** düzəliş və qaralama etmək olmaz.
- → Protokol (istər qaralama, istərsə də rəsmi nüsxə olsun) yalnız MnSK-nın həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilir və imzalanır.

### *4.2. SƏSLƏRİN HESABLANMASI VƏ SƏSVERMƏNİN NƏTİCƏLƏRİ HAQQINDA PROTOKOLUN DOLDURULMASINA DAİR İZAH*

| **YADDA SAXLA!** |
|---|
| SEÇKİ QUTULARINI AÇMAZDAN ƏVVƏL AŞAĞIDAKI HƏRƏKƏTLƏRİ İCRA EDİN VƏ BÜTÜN MƏLUMATLARI **PROTOKOLUN QARALAMA NÜSXƏSİNDƏ** QEYD EDİN. |

**1-ci hərəkət** – Seçki məntəqəsi üzrə seçici siyahısında olan seçicilərin ümumi sayının hesablanması və qeyd edilməsi:

- ↪ MnSK-nın daimi (və ya müvəqqəti) seçicilər siyahısındakı seçicilərin sayını yoxlayın və həmin məlumatı protokolun qaralama nüsxəsinin 1-ci bəndinin "a" yarımbəndində sözlə və rəqəmlə qeyd edərək ucadan elan edin.
- ↪ Əlavə seçicilər siyahısındakı seçicilərin sayını yoxlayın və həmin sayı protokolun qaralama nüsxəsinin 1-ci bəndinin "b" yarımbəndində sözlə və rəqəmlə qeyd edərək ucadan elan edin.
- ↪ Protokolun 1-ci bəndinin "a" və "b" yarımbəndlərindəki rəqəmləri toplayın, alınan rəqəm məntəqə üzrə seçicilər siyahısındakı seçicilərin ümumi sayıdır. Həmin sayı protokolun qaralama nüsxəsinin 1-ci bəndində sözlə və rəqəmlə qeyd edin və ucadan elan edin.

| **1 = 1a + 1b** |
|---|

**2-ci hərəkət** – MnSK-dan qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi almış seçicilərin sayını MnSK-nın aktına əsasən dəqiqləşdirərək protokolun qaralama nüsxəsinin 2-ci bəndində sözlə və rəqəmlə qeyd edərək ucadan elan edin.

**YANILMAYIN:** bu rəqəmin başqa seçki məntəqələrindən qeydiyyatdan çıxma vəsiqəsi alaraq sizin seçki məntəqənizdə qeydiyyatdan çıxma vəsiqəsi ilə səs vermiş seçicilərə aidiyyəti yoxdur.

***QEYD:*** qeydiyyatdan çıxma vəsiqəsi əldə etmiş sizin məntəqədən olan seçicilərin sayı seçki günündən əvvəl müəyyən olunmalı və MnSK-nın aktı ilə təsdiq edilməlidir. MnSK və DSK tərəfindən verilmiş qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin ümumi sayı həmin aktda qeyd olunmalıdır.

**3-cü hərəkət** –DSK-dan MnSK-ya verilmiş seçki bülletenlərinin sayının qeyd edilməsi

- ↪ Seçki bülletenlərinin sayı onların DSK-dan verilməsini təsdiqləyən aktda göstərilən rəqəmlə eyni olmalıdır.
- ↪ Həmin sayı protokolun qaralama nüsxəsinin 3-cü bəndində sözlə və rəqəmlə qeyd edin.
- ↪ Bu rəqəmi ucadan elan edin.
- ↪ Bu rəqəm protokolun 4, 5 və 6-cı bəndlərinin cəminə bərabər olmalıdır.

| **3 = 4 + 5 + 6** |
|---|

**4-cü hərəkət** – Seçki bülleteni almış seçicilərin sayının qeyd edilməsi:

- ↪ Əvvəlcə səsvermə otağından kənarda səs vermək üçün bülleten almış seçicilərin sayını elan edin. Bu məlumatı (həm də seçici siyahısındakı müvafiq qeydləri) səsvermə otağından kənarda səsverməyə dair müraciəti əks etdirən və arxasında seçicilərin bülleten almaları barədə imzaları olan ərizələrin sayına əsasən müəyyən etmək olar. Daşınan seçki qutusu ilə səs vermiş seçicilər haqqında seçici siyahısında müvafiq qeydlər olmalıdır.
- ↪ Həmin sayı protokolun qaralama nüsxəsinin 4-cü bəndinin "a" yarımbəndində sözlə və rəqəmlə qeyd edin.
- ↪ Sonra səsvermə otağında seçki bülleteni alan seçicilərin sayını müəyyən edin. Bu say seçicilər siyahısındakı seçici imzalarının sayına bərabər olmalıdır.

- Alınan sayı protokolun qaralama nüsxəsinin 4-cü bəndinin “b” yarımbəndində sözlə və rəqəmlə qeyd edin.
- Sonra səsvermə otağında qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi ilə səs vermiş seçicilərin sayını yoxlayın (həmin vəsiqələr seçicilər siyahısına tikilməklə əlavə olunmalıdır). Onları hesablayın və həmin məlumatı protokolun qaralama nüsxəsinin 4-cü bəndinin “c” yarımbəndində sözlə və rəqəmlə qeyd edərək ucadan elan edin.
- Sonda 4-cü bəndin “a”, “b” və “c” yarımbəndlərindəki sayları toplayın. Alınan sayı protokolun qaralama nüsxəsinin 4-cü bəndində sözlə və rəqəmlə qeyd edin.
- Bu rəqəmi ucadan elan edin.

**4 = 4a + 4b + 4c**

**5-ci hərəkət** – İstifadə edilməmiş seçki bülletenlərinin sayılması, ləğvi və qeyd edilməsi:
- İstifadə edilməmiş bülletenləri sayın.
- İstifadə edilməmiş hər bir seçki bülletenini aşağı sağ küncünü kəsməklə ləğv edin.
- Həmin rəqəmi elan edin.
- İstifadə edilmədən ləğv olunmuş bülletenləri zərfə qoyun və üzərində “İstifadə edilməmiş seçki bülletenləri” yazın.
- İstifadə edilmədən ləğv olunmuş bülletenlərin sayını, məntəqənizin nömrəsini aid olduğu dairə ilə birgə zərfin üzərində qeyd edin.
- İstifadə edilmədən ləğv olunmuş bülletenlərin sayını protokolun qaralama nüsxəsinin 5-ci bəndində sözlə və rəqəmlə qeyd edin.




**6-cı hərəkət** – Korlanmış seçki bülletenlərinin müəyyən olunması və qeyd edilməsi:
- Əvvəlcə içərisində seçicilər tərəfindən korlanmış bülletenlər olan zərfi (zərfləri) açın.
- Korlanmış bülletenləri sayın.
- Həmin rəqəmi elan edin.
- Korlanıb ləğv edilmiş bülletenləri zərfə qoyun və zərfin üzərində “Korlanmış seçki bülletenləri” sözlərini qeyd edin.
- Korlanıb ləğv edilmiş bülletenlərin sayını, məntəqənizin nömrəsini aid olduğu dairə ilə birgə zərfin üzərində qeyd edin.
- Korlanıb ləğv edilmiş bülletenlərin sayını sözlə və rəqəmlə protokolun qaralama nüsxəsinin 6-cı bəndində qeyd edin.




**YADDA SAXLA!**

Korlanmış seçki bülletenləri seçki günü ərzində bunun üçün nəzərdə tutulmuş zərfdə saxlanılmalıdır. Səsvermə otağından kənarda səsvermə zamanı korlanmış seçki bülletenlərini də həmin zərfə qoymağı unutmayın.

**Bu yaddaş kitabçasının 1–6-cı hərəkətlərini tamamladıqdan, protokolun qaralamasının 1–6-cı bəndlərini doldurduqdan və onların düzgünlüyünü bir daha yoxladıqdan sonra SEÇKİ QUTULARINI YOXLAYIN VƏ NÖVBƏ İLƏ AÇIN.**

Hər bir seçki qutusuna müdaxiləni istisna etmək üçün qutuların kilidlərini müşahidəçilərin iştirakı ilə yoxlayın. Kilidlərin fərdi nömrələrini elan edin. Bu nömrələr daşınan və daşınmaz seçki qutuları kilidlənərkən hazırlanmış aktdakı nömrələrlə eyni olmalıdır.

**7-ci hərəkət** – Seçki qutularının açılması və içindəki bülletenlərin ayrılması (qruplaşdırılması)

***Daşınan seçki qutusu üzrə:***

- Daşınan seçki qutusunu müşahidəçilərin gözü qarşısında açın.
- Qutunun içindəki bülletenləri çıxarın və aşağıdakı bölgü üzrə ayırın (qruplaşdırın):
  - müəyyənləşdirilmiş formada olan bülletenlər;
  - müəyyənləşdirilmiş formada olmayan bülletenlər.
- Aşağıdakı meyarlardan hər hansı birinə cavab verməyən müəyyənləşdirilmiş formada olmayan bülletenləri kənara yığın və buna dair akt tərtib edin, sonradan onu protokola əlavə edin.

**YADDA SAXLA!**

Səslər hesablanarkən seçki qutularından çıxmış müəyyənləşdirilmiş formada olmayan seçki bülletenləri sayılaraq aktlaşdırılır və həmin akt səsvermənin nəticələri haqqında yekun protokola əlavə olunur.

**SEÇKİ BÜLLETENİNİN MÜƏYYƏNLƏŞDİRİLMİŞ FORMADA OLDUĞUNU TƏYİN ETMƏK ÜÇÜN MEYARLAR**

- Bülleten MSK-nın təsdiq etdiyi nümunəyə müvafiq olaraq rəsmən hazırlanmışdır.
- Bülletenin üz tərəfinin yuxarı sağ küncünə müvafiq MnSK-nın möhrü vurulmuşdur.
- Bülletenin nömrələnmiş yuxarı sol küncü kəsilmişdir.

**YADDA SAXLA!**

Bülleten yuxarıdakı üç meyarın hamısına bütövlükdə cavab verdikdə müəyyənləşdirilmiş formalı hesab edilir.

- Daşınan seçki qutusundakı müəyyənləşdirilmiş formada olan bülletenləri sayın, sonra bu rəqəmi elan edin və protokolun qaralama nüsxəsinin 7-ci bəndinin “a” yarımbəndində sözlə və rəqəmlə qeyd edin.

**7a ≤ 4a**

**YADDA SAXLA!**

Daşınan seçki qutusundan çıxmış müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı səsvermə otağından kənarda səs vermək istəyən seçicilərə verilmiş seçki bülletenlərinin sayına bərabər, ya da bundan az ola bilər, lakin çox ola bilməz.

Daşınan seçki qutusundan çıxmış seçki bülletenlərini sayarkən müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı səsvermə otağından kənarda səs vermək üçün verilmiş ərizələrin sayından çox olarsa, bu seçki qutusundan çıxan bütün bülletenlər MnSK-nın qərarı ilə etibarsız hesab edilir.

Daşınan seçki qutusunu müşayiət edən MnSK üzvlərinin soyadları da göstərilməklə bu barədə akt tərtib edilir və həmin akt səsvermənin nəticələri haqda protokola əlavə olunur.

***Daşınmaz seçki qutusu üzrə:***

- Daşınmaz seçki qutusunu müşahidəçilərin gözü qarşısında açın və onun içərisindəki bülletenləri aşağıdakı kimi ayırın (qruplaşdırın):
  - müəyyənləşdirilmiş formada olan bülletenlər;
  - müəyyənləşdirilmiş formada olmayan bülletenlər.
- Daşınmaz seçki qutusundakı müəyyənləşdirilmiş formada olan bülletenləri sayın, bu rəqəmi elan edin və protokolun qaralama nüsxəsinin 7-ci bəndinin "b" yarımbəndində sözlə və rəqəmlə qeyd edin.

**7b ≤ 4b+4c**

**YADDA SAXLA!**

Daşınmaz seçki qutusundan çıxmış müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı səsvermə günü seçki məntəqəsində seçicilərə verilmiş seçki bülletenlərinin sayına bərabər, ya dabundan az olmalıdır; əgər azdırsa, bu, seçicinin seçki bülleteni alması və onu qutuya salmaması ilə izah oluna bilər.

Daşınmaz seçki qutusundan çıxmış seçki bülletenləri sayılarkən müəyyənləşdirilmiş formada olan seçki bülletenlərinin sayı səsvermə günü seçki məntəqəsində seçicilərə verilmiş bülletenlərinin sayından çox olarsa, seçki qutusundakı bütün bülletenlər MnSK-nın qərarı ilə etibarsız hesab edilir. Bu barədə tərtib edilmiş akt səsvermənin nəticələri haqqında rəsmi protokola əlavə edilir.

Sonra 7-ci bəndin "a" və "b" yarımbəndlərindəki sayları toplayın. Alınan sayı protokolun qaralama nüsxəsinin 7-ci bəndində sözlə və rəqəmlə qeyd edin:

**7=7a+7b**

**Protokolun 7-ci bəndinin cəmi 4-cü bənddən ya kiçik, ya da ona bərabər olmalıdır:**

**7 ≤ 4**

**Bu say eyni zamanda protokolun 8-ci və 9-cu bəndlərinin cəminə bərabər olmalıdır:**

**7=8+9**

***QEYD*:** Hər iki qutudan çıxan müəyyənləşdirilmiş formada olmayan bülletenlər kənarda saxlanılır və səslərin sayılması zamanı nəzərə alınmır. Habelə onların sayı barəsində məlumat protokola daxil edilmir, lakin bu say müvafiq aktda göstərilir.

**8-ci hərəkət** – Daşınan və daşınmaz seçki qutularındakı etibarsız seçki bülletenlərinin müəyyən olunması

**Seçki bülleteni aşağıdakı hallarda etibarsız sayılır:**

**SEÇKİ BÜLLETENİNİN ETİBARSIZ OLMASINI TƏYİN ETMƏK ÜÇÜN YADDAŞ**

- Bülleten müəyyənləşdirilmiş formadadır (7-ci hərəkətdəki meyarlara bax);
- Bülletendə namizədlərin soyadlarından sağdakı kvadratlarda heç bir işarə qoyulmamış və ya birdən çox işarə qoyulmuşdur;
- Bülletendə qoyulmuş işarədən seçicinin iradəsini müəyyənləşdirmək mümkün deyil.

Daşınan və daşınmaz seçki qutularındakı etibarsız seçki bülletenlərinin sayını protokolun qaralamasının 8-ci bəndində sözlə və rəqəmlə qeyd edin və bu sayı elan edin.

**9-cu hərəkət** – Daşınan və daşınmaz seçki qutularındakı etibarlı seçki bülletenlərinin müəyyən olunması

**Seçki bülleteni aşağıdakı hallarda etibarlı sayılır:**

**SEÇKİ BÜLLETENİNİN ETİBARLI OLMASINI TƏYİN ETMƏK ÜÇÜN YADDAŞ**

- Bülleten müəyyənləşdirilmiş formadadır (7-ci hərəkətdəki meyarlara bax);
- Bülletendə namizədlərin soyadlarından sağdakı kvadratların yalnız birində işarə qoyulmuşdur;
- Bülletendə qoyulmuş işarədən seçicinin iradəsini müəyyənləşdirmək mümkündür.

**YADDA SAXLA!**

Əgər seçki bülleteni yuxarıdakı şərtlərə cavab vermirsə, o, etibarsız hesab edilir. Bülletenin etibarlı olması barədə şübhə yarandıqda MnSK-nın üzvləri səsvermə yolu ilə həmin bülletenin etibarlı olub-olmamasını müəyyən etməlidirlər. Seçki bülleteninin etibarsız sayılması haqqında qərar qəbul edilərsə, həmin bülletenin arxa tərəfində etibarsız sayılmanın səbəbləri göstərilməli və bu qeydlər MnSK-nın sədri və katiblərinin imzası ilə təsdiqlənməlidir.

- Etibarlı seçki bülletenlərini sayın və bu rəqəmi elan edin.
- Protokolun qaralama nüsxəsinin 9-cu bəndində bu sayı sözlə və rəqəmlə qeyd edin.
- Bu rəqəm 10-cu bənddəki səslərin cəminə bərabər olmalıdır.

**9=10**

***QEYD:*** **Səslər sayılarkən** istifadə edilmiş hər bir seçki bülleteninin arxa tərəfi möhürlənir.

**10-cu hərəkət** – Etibarlı hesab edilmiş səslərin sayını müəyyən edin.
Bu hərəkətdə müəyyənləşdirilmiş formada olan qanunauyğun doldurulmuş (namizədlərin soyadlarından sağdakı kvadratların yalnız birində işarə qoyulmuş və bu işarədən seçicinin iradəsinin müəyyənləşdirilməsi mümkün olan) seçki bülletenlərindəki səslərin sayı göstərilməlidir.
Bu say protokolun 10-cu (“Etibarlı hesab edilmiş səslərin namizədlər arasında bölünməsi”) bəndinin cəminə bərabər olmalıdır.
Etibarlı hesab edilmiş səslərin deputatlığa namizədlər arasında bölünməsi:

- Protokolun qaralama nüsxəsinin 10-cu bəndində verilmiş cədvəldə qeydə alınmış bütün deputatlığa namizədlərin adlarını seçki bülletenində göstərilmiş ardıcıllıqla yazın.
- Hər bir namizədin lehinə verilmiş səsləri ucadan elan etməklə hesablayın.
- Səslərin hesablanması bitdikdən sonra hər bir namizədin topladığı səslərin yekun sayını elan edib, bu sayı həmin namizədin adının qarşısındakı müvafiq qrafada sözlə və rəqəmlə qeyd edin.
- Verilmiş bütün səslərin cəmini hesablayın və həmin rəqəmi cədvəlin aşağısındakı müvafiq sətirdə sözlə və rəqəmlə qeyd edin.
- Protokolun 10-cu bəndinin cəmi 9-cu bənddə göstərilən etibarlı səslərin sayına bərabər olmalıdır.

### *4.3. SEÇKİ MƏNTƏQƏSİ BAĞLANMAZDAN ƏVVƏL SƏSVERMƏNİN NƏTİCƏLƏRİ HAQQINDA PROTOKOLUN MnSK-NIN HƏLLEDİCİ SƏS HÜQUQLU ÜZVLƏRİ TƏRƏFİNDƏN DOLDURULMASI VƏ NƏTİCƏLƏR HAQQINDA HESABAT*

MnSK-da səsvermənin nəticələri haqqında rəsmi protokolu doldurarkən verilmiş yaddaş - siyahıda göstərilən hər bir tapşırığı icra edin:

- ❑ protokolun qaralama nüsxəsini yoxlayın və onun düzgün doldurulduğunu yəqin edin;
- ❑ məlumatları diyircəkli qələmlə rəsmi protokola köçürün;
- ❑ protokolla razılaşmayan MnSK-nın həlledici səs hüquqlu üzvü protokola öz xüsusi rəyini əlavə edə bilər. Bu barədə protokolda qeyd aparılır;
- ❑ protokolu imzalayın;
- ❑ ümumi tanışlıq üçün protokolun 3-cü nüsxəsini dərhal seçki məntəqəsinin məlumat lövhəsində yerləşdirin. Bu nüsxə orada 5 gün qalmalıdır.

**YADDA SAXLA!**

MnSK-nın sədri, katibi və ya üzvlərindən biri müşahidəçilərin xahişi ilə protokolun çıxarılmış surətlərinin hər birinin düzgünlüyünü yoxlamalıdır.
Əgər məlumatlar düzdürsə, "əsli ilə düzdür" sözlərini yazdıqdan sonra protokol komissiyanın möhrü ilə təsdiqlənir, təsdiqetmə tarixi və vaxtı qeyd edilir.

**DSK-ya göndərilməli olan sənədlər**

- ↪ Əvvəlcə DSK-ya göndərilməsi tələb olunan bütün sənədləri toplayın:
  - protokolun 1-ci nüsxəsi;
  - səsvermə günü MnSK-ya Seçki Məcəlləsinin müddəalarının pozulması ilə əlaqədar daxil olmuş şikayətlər (ərizələr) və bunlar üzrə MnSK-nın qəbul etdiyi qərarlar (belə hallar mövcuddursa);
  - DSK-dan seçki bülletenlərinin alınması haqqında akt;
  - seçicilərə verilmiş seçki bülletenlərinin kəsilmiş sol künclərinin sayı haqqında akt;
  - DSK-dan gözə görünməyən mürəkkəb balonlarının, ultrabənövşəyi lampaların və ehtiyat batareyaların alınması barədə akt;
  - istifadə edilməmiş seçki bülletenlərinin ləğv edilməsi haqqında akt (bülletenlərin sayı göstərilməklə);
  - qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin verilməsi və istifadə edilməmiş vəsiqələrin ləğv edilməsi haqqında akt (həmin vəsiqələrin sayı göstərilməklə);
  - korlanmış seçki bülletenlərinin sayı haqqında akt;
  - səsvermə otağından kənarda səsvermə prosesi zamanı istifadə edilmiş və istifadə edilməmiş seçki bülletenlərinin sayı haqqında akt;
  - seçki bülletenləri və seçki məntəqəsi üzrə seçicilərin siyahısı [qeydiyyatdan çıxma (səsvermə) vəsiqələri və müvafiq qərarlar da əlavə edilməklə].
- ↪ Adları çəkilən aktların MnSK-nın sədri və katibləri tərəfindən imzalandığına və möhürləndiyinə əmin olun.
- ↪ MnSK-ya ünvanlanmış bütün şikayətlərin və müvafiq qərarların təsdiq olunmuş nüsxələrindən bir toplu düzəldin.
- ↪ Sonra MnSK-ya ünvanlanmış şikayətlərin və MnSK-nın bu şikayətlər barədə qərarlarının əsillərini rəsmi protokolun birinci nüsxəsinə əlavə edin.
- ↪ Qeydiyyatdan çıxma (səsvermə) vəsiqələri də əlavə edilməklə, seçici siyahılarını bir zərfə qoyun və həmin zərfi işarələyin (müvafiq qeyd edin).
- ↪ Seçki məntəqəsi üzrə istifadə olunmuş və istifadə olunmamış, etibarlı və etibarsız seçki bülletenlərini ayrıca zərflərə yığın. Onları işarələyin (müvafiq qeyd edin).
- ↪ Səsvermə prosesi başa çatanadək topladığınız və zərflərə qoyduğunuz bütün materialları bir yerə yığın.
- ↪ Yuxarıda göstərilənləri – protokolu, aktları, şikayətləri və digər materialları DSK-ya göndərmək üçün bir bağlamaya ( iri bir zərfə) yığın.
- ↪ Bağlamanın (zərfin ) üzərinə MnSK-nın nömrəsini, "protokol" sözünü və bağlamada (zərfdə) olan sənədlərin və materialların siyahısını yazın.

**QEYD:** Bağlamanı (zərfi) dərhal, lakin 24 saatdan gec olmayaraq müxtəlif siyasi partiyaları təmsil edən iki MnSK üzvünün və müşahidəçilərin müşayiəti ilə DSK-ya aparın.
Bağlamanı (zərfi) təxirə salmadan göndərə bilmirsinizsə, DSK-ya göndərilənədək onun MnSK-nın binasında saxlanılması üçün görüləcək təhlükəsizlik tədbirləri barədə müşahidəçilərə və mətbuat nümayəndələrinə məlumat verin.

**YADDA SAXLA!**
Hər hansı bir protokol karandaşla doldurulubsa və ya düzgün doldurulmayıbsa, boşdursa, yaxud onda düzəlişlər edilibsə, eləcə də MnSK üzvlərinin ən azı üçdə ikisi tərəfindən **İMZALANMAYIBSA**, **DSK** həmin protokolu **ETİBARSIZ** hesab edəcək.

**MnSK-da saxlanılan sənədlər:**

- → protokolun 2-ci nüsxəsi;
- → səsvermə günü MnSK-ya Seçki Məcəlləsinin müddəalarının pozulması ilə əlaqədar daxil olmuş şikayətlərin (ərizələrin) təsdiq olunmuş surətləri;
- → MnSK qərarlarının təsdiq olunmuş surətləri;
- → MnSK tərəfindən seçki bülletenlərinin alınması haqqında aktın təsdiq olunmuş surəti;
- → DSK-dan gözə görünməyən mürəkkəb balonlarının, ultrabənövşəyi lampa və ehtiyat batareyaların alınması barədə aktın təsdiq olunmuş surəti;
- → istifadə edilməmiş seçki bülletenlərinin ləğvi haqqında aktın təsdiq olunmuş surəti;
- → qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin verilməsi və istifadə edilməmiş qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin ləğvi haqqında aktların təsdiq olunmuş surəti;
- → seçki bülletenlərinin kəsilmiş sol küncləri;
- → korlanmış seçki bülletenlərinin kəsikləri;
- → səsverməni və səslərin hesablanmasını müşahidə edən şəxslərin siyahısı.

Bu sənədlər MnSK-nın fəaliyyətinin sonuna kimi MnSK-da saxlanılır.

### *4.4. SEÇKİ MƏNTƏQƏSİNİN BAĞLANMASI*

MnSK-nın sədri seçki məntəqəsini bağlamazdan əvvəl aşağıdakıları yəqin edir:

- → səsvermənin nəticələri haqqında rəsmi protokol MSK-nın təlimatlarına uyğun doldurulub;
- → həmin protokolun 3-cü nüsxəsi məlumat lövhəsinə vurulub;
- → rəsmi protokolun surətini əldə etmək istəyən müşahidəçilərə onun MnSK-nın möhrü ilə təsdiqlənmiş surəti verilib;
- → bütün seçki materialları tələb olunan qaydada yığılıb bağlanaraq DSK-ya göndərilib, ya da MnSK-nın binasında lazımi qaydada müvəqqəti olaraq mühafizə edilir;
- → bütün müşahidəçilər və mətbuat nümayəndələri seçki məntəqəsini tərk ediblər;

**Yuxarıda göstərilənləri yəqin etdikdən sonra MnSK-nın sədri MnSK üzvlərini buraxıb seçki məntəqəsini bağlaya bilər.**

***QEYD:*** **“**Seçki günü üçün Yaddaş” kitabçası seçki keçirilən bütün seçki məntəqələrində tətbiq edilir.

**Veb-kamera quraşdırılan səsvermə otağını aşağıdakı sxemə uyğun təşkil edin!**




***QEYD:*** **Səsvermə otağı elə təşkil olunmalıdır ki, səsvermə kabinələri istisna olmaqla, seçki məntəqəsinin içərisində gedən prosesləri veb-kamera vasitəsilə müşahidə etmək mümkün olsun.**

